Azərbaycan Texniki Universitetinin Elmi
Şurasının 5 iyul 2025-ci il
tarixli iclasının qərarı ilə qəbul edilmişdir.
(protokol № 8)

# TƏDQİQAT VƏ İNKİŞAF DEPARTAMENTİNİN
# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1.Bu Əsasnamə Azərbaycan Texniki Universitetinin (AzTU) Tədqiqat və İnkişaf Departamentinin (bundan sonra "Departament") elmi fəaliyyətin təşkili, idarə olunması, inkişafı və monitorinqinə cavabdeh olan əsas struktur bölmə olub fəaliyyət istiqamətlərini, təşkilati strukturunu, hüquq və vəzifələrini, idarəetmə mexanizmini və hesabatlılıq sistemini tənzimləyir. Departamentin məqsədi elmi və texnoloji tərəqqinin təşviqi, beynəlxalq elmi məkana inteqrasiya, dayanıqlı inkişaf məqsədlərinə uyğun tədqiqatların aparılması, universitetin qlobal rəqabət qabiliyyətinin yüksəldilməsi, beynəlxalq reytinqlərdə iştirakın təmin edilməsi və elmi nəticələrin ictimai və sənaye sektorlarına fayda verməsini təmin etməkdir;

1.2.Departament AzTU-nun strateji məqsədlərinə uyğun olaraq elmi-tədqiqat, innovasiya, beynəlxalq əməkdaşlıq, reytinqlər və akademik inkişaf fəaliyyətlərini əlaqələndirən əsas struktur bölməsidir. Departamentin fəaliyyət istiqamətləri ali təhsil müəssisələrində elmi tədqiqatların sistemli şəkildə təşkili, universitetin strateji inkişaf hədəflərinin reallaşdırılması, innovativ layihələrin təşviqi və dayanıqlı inkişaf məqsədlərinin dəstəklənməsi ilə müəyyən olunur.

Departamentin strateji yanaşması aşağıdakı prinsiplərə əsaslanır:

- Akademik mükəmməllik və elmi dürüstlük prinsipi;
- İnnovasiya və tədqiqat nəticələrinin kommersiyalaşdırılması prinsipi;
- Beynəlxalq elmi əməkdaşlıq və qlobal inteqrasiya prinsipi;
- Dayanıqlılıq və sosial məsuliyyət prinsipi;
- Açıq elm (Open Science) və verilənlərin idarə olunması prinsipi;
- Elmi fəaliyyətin beynəlxalq reytinqlərə uyğun planlaşdırılması prinsipi;

1.3.Departament Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında", "Elm haqqında" qanunları, Prezident fərmanları, aidiyyəti nazirlik və qurumların qərar və normativ

sənədləri, AzTU Nizamnaməsi və bu Əsasnamə ilə müəyyən edilmiş prinsiplərə əsasən fəaliyyət göstərir;

1.4.Departamentin struktur tərkibi, funksiyaları və səlahiyyətləri bu Əsasnamə ilə tənzimlənir.

## 2. Departamentin əsas fəaliyyət istiqamətləri

2.1.AzTU-da aparılan elmi-tədqiqat fəaliyyətlərinin vahid strategiya əsasında təşkili və əlaqələndirilməsini təmin edir, tədqiqat mövzularının prioritet istiqamətlərə uyğunlaşdırılmasına nəzarət edir, tədqiqat proqramlarını təsdiq edir və onların nəticələrini təhlil edir;

2.2. Fakültə və kafedralarla birlikdə illik və uzunmüddətli elmi fəaliyyət planlarını hazırlayır, bu planları universitetin strateji hədəfləri və milli elmi prioritetlərlə uyğunlaşdırır, icrasına nəzarət edir və monitorinq aparır;

2.3.Beynəlxalq və yerli qrant proqramlarında iştirakın genişləndirilməsi məqsədilə elmi heyətə metodoloji və təşkilati dəstək göstərir, layihələrə dair məlumatları toplayır və maraqlı tərəflərə təqdim edir;

2.4.Akademik heyətin və gənc tədqiqatçıların peşəkar inkişafı üçün təlim, seminar və mentorluq proqramları təşkil edir, daxili qrantlar və mükafat sistemləri tətbiq edir, qrant müraciətləri və hüquqi məsələlərlə bağlı məsləhətlər təqdim edir;

2.5.Universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, birgə layihələrin icrası, texnologiyaların tətbiqi və transferi sahəsində təşəbbüslər irəli sürür, tədqiqat nəticələrinin kommersiyalaşdırılmasına dəstək mexanizmləri yaradır və həyata keçirilməsinə nəzarət edir;

2.6.Tədqiqat proseslərində elmi etikaya riayət olunmasını təmin edir, plagiat və saxta elmi fəaliyyətin qarşısının alınması üçün proqram təminatlarından və Etika Komitəsinin fəaliyyətindən istifadə edir, elmi fəaliyyətin keyfiyyətinə və şəffaflığına nəzarət edir;

2.7.Universitetin beynəlxalq elmi reytinqlərdə, o cümlədən QS, Times Higher Education, GreenMetric və digər platformalarda mövqeyinin yaxşılaşdırılması üçün fəaliyyətlər həyata keçirir, reytinq indikatorlarını təhlil edir və inkişaf planları hazırlayır;

2.8.Reytinqlərlə bağlı məlumatların toplanması, emalı və vaxtında təqdim olunması üzrə fakültələr, kafedralar və digər struktur bölmələrlə əlaqəli koordinasiyanı təmin edir, məlumatların düzgünlüyünə və tamlığına nəzarət edir;

2.9.Reytinq indikatorlarının təhlilini aparır, zəif və güclü tərəfləri müəyyənləşdirir, universitetin beynəlxalq mövqeyinin yaxşılaşdırılması üçün strategiyalar və inkişaf planları hazırlayır, həmçinin onların icrasını əlaqələndirir və monitorinq edir;

2.10.Reytinqlərin idarə olunması üzrə daxili prosedurlar, təlimatlar və metodologiyaların hazırlanmasını təşkil edir, universitet rəhbərliyi və aidiyyəti qurumlarla məlumat mübadiləsini təmin edir, beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqinin koordinasiyasını həyata keçirir;

2.11.Universitet adından elmi qrant müraciətləri və müqavilələrinin hazırlanmasını və təqdim olunmasını təşkil edir, elmi qrantların qeydiyyatını, idarə olunmasını və monitorinqini həyata keçirir, şəffaf və ədalətli maliyyələşmə sisteminə nəzarət edir;

2.12.Elmi fəaliyyətin cəmiyyətə tanıdılması məqsədilə təşviqat tədbirləri, ictimai çıxışlar, elmi müzakirələr və media vasitəsilə məlumatlandırma işləri həyata keçirir;

2.13.Universitetin strateji planlaşdırma prosesində iştirak edir, elmi fəaliyyət üzrə hesabatlar, təkliflər və digər materiallar hazırlayır, Elmi Şura və aidiyyəti qurumlara informasiya təminatı göstərir;

2.14. Xarici universitetlər və elmi-tədqiqat institutları ilə birgə fəaliyyətləri əlaqələndirir, ortaq layihələrin icrasını təşviq edir, beynəlxalq əməkdaşlıqları genişləndirir.

## 3. Departamentin vəzifələri

3.1. Universitetin tədqiqat strategiyasını və siyasətini həyata keçirmək;

3.1.1. Universitetin illik və uzunmüddətli elmi-tədqiqat planlarını hazırlamaq və icrasını təmin etmək;

3.1.2.Tədqiqat sahələrinin prioritetlərini müəyyənləşdirmək və resursların bu istiqamətlərə yönəldilməsini təmin etmək;

3.1.3.Universitetin strateji məqsədlərinə uyğun olaraq innovasiya və texnologiya transferi proseslərini inkişaf etdirmək;

3.1.4.Universitetdə elmi fəaliyyətin təşkili üzrə normativ sənədlərin hazırlanmasını və onların tətbiqinə nəzarəti həyata keçirir;

3.2. Elmi etikaya və standartlara riayət olunmasına nəzarət etmək;

3.2.1.Tədqiqatlarda etik normaların, akademik dürüstlüyün və intellektual mülkiyyət hüquqlarının qorunmasını təmin etmək;

3.2.2. Plagiatın qarşısını almaq üçün müvafiq sistemlərdən istifadəni təşviq etmək, elmi etik pozuntuların araşdırılması və qarşısının alınması üçün prosedurlar yaratmaq;

3.2.3. Tədqiqat iştirakçılarına elmi etik təlimlər keçirmək və məlumatlandırma işləri aparmaq;

3.3. Daxili qrant və mükafat mexanizmlərini idarə etmək;

3.3.1. Universitet daxilində tədqiqatları stimullaşdırmaq üçün qrant proqramları təşkil etmək, onlara müraciət prosesini və seçim meyarlarını tənzimləmək;

3.3.2.Elmi nailiyyətlərə görə mükafatlandırma və digər stimullaşdırıcı tədbirləri həyata keçirmək;

3.3.3.Tədqiqatçıların fəaliyyətini qiymətləndirərək, onların karyera yüksəlişi və akademik inkişafına töhfə vermək;

3.4. Tədqiqatların idarə olunması və koordinasiyasını təmin etmək;

3.4.1.Universitetdə aparılan bütün elmi layihələrin planlaşdırılması, icrası və nəticələrinin qiymətləndirilməsini koordinasiya etmək;

3.4.2.Tədqiqat qrupları və fakültələr arasında əlaqələndirici rol oynamaq, əməkdaşlığı gücləndirmək;

3.4.3.Layihələrin vaxtında və keyfiyyətli tamamlanmasını təmin etmək üçün monitorinq sistemləri qurmaq;

3.5. Beynəlxalq elmi əməkdaşlıq və layihələrdə universitetin iştirakını təşviq etmək;

3.5.1.Xarici elmi qurumlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi, beynəlxalq qrant proqramlarına müraciətlərin hazırlanmasına kömək etmək;

3.5.2.Universitetin beynəlxalq elmi nüfuzunun artırılması üçün tədbirlər görmək, birgə tədqiqatlar və konfranslar təşkil etmək;

3.6. Elmi nəticələrin yayılması və tətbiqinə dəstək vermək;

3.6.1.Tədqiqat nəticələrinin beynəlxalq jurnallarda dərc olunmasını təşviq etmək;

3.6.2.Patent və müəlliflik hüquqları ilə bağlı işlərin aparılmasını, texnologiyaların sənaye tərəfdaşlarına ötürülməsini təmin etmək;

3.6.3. Elmi seminarlar, konfranslar və təlimlər vasitəsilə biliklərin paylaşılmasını təşkil etmək;

3.7. Tədqiqat fəaliyyətinin maliyyə təminatını təşkil etmək;

3.7.1. Milli və beynəlxalq qrant proqramlarında iştirak üçün ərizələrin hazırlanmasına dəstək göstərmək;

3.7.2.Universitetin elmi-tədqiqat fəaliyyətinin maliyyələşdirilməsi üçün əlavə mənbələr tapmaq;

3.7.3. Büdcə istifadəsini nəzarətdə saxlamaq və maliyyə hesabatlarını hazırlamaq;

3.8. Tədqiqat və inkişaf fəaliyyəti barədə hesabatların hazırlanmasını təmin etmək;

3.8.1. İllik, yarımillik və cari dövr hesabatlarını vaxtında və tam şəkildə hazırlamaq;

3.8.2. Rektorluq və digər aidiyyəti qurumlara tədqiqatların nəticələri, uğurları və problemləri barədə məlumat vermək;

3.9. Elmi-tədqiqat işçilərinin peşəkarlıq səviyyəsinin artırılması üçün tədbirlər görmək;

3.9.1. Təlimlər, seminarlar, təcrübə mübadiləsi proqramları təşkil etmək;

3.9.2. Gənc tədqiqatçıların inkişafını dəstəkləmək üçün mentorluq sistemlərini qurmaq;

3.10. Tədqiqatlarda cinsiyyət bərabərliyi və inklüzivlik prinsiplərinə riayət edilməsini təmin etmək;

3.10.1. Elmi heyət arasında bərabər imkanların yaradılması üçün tədbirlər həyata keçirmək;

3.10.2. Müxtəliflik və inklüzivlik strategiyalarının tədqiqat siyasətinə inteqrasiyasını təmin etmək;

3.11. Universitetin reytinqlərdə müxtəlif göstəricilər üzrə mövqeyinin yaxşılaşdırılmasına dəstək göstərmək;

3.11.1. Universitetin müxtəlif beynəlxalq və yerli reytinqlərdə göstəricilər üzrə mövqeyinin yaxşılaşdırılmasına dəstək vermək;

3.11.2. Reytinqlər üzrə tələb olunan məlumatların toplanması, sistemləşdirilməsi və təhlilini həyata keçirmək;

3.11.3. Reytinqlər üzrə məsul qurumlarla əməkdaşlıq əlaqələrini qurmaq və mövcud əlaqələri inkişaf etdirmək;

3.11.4. Reytinqlərdə beynəlxalq nüfuzun artırılmasına yönəlmiş elmi-tədqiqat fəaliyyətlərini təşviq etmək;

3.11.5. Reytinq meyarları ilə uzlaşan siyasət sənədlərini təhlil etmək və inkişaf etdirilməsi üçün təkliflər vermək;

3.11.6. Reytinqlərə təqdim ediləcək məlumatların aidiyyəti struktur bölmələrdən vaxtında və düzgün şəkildə toplanmasını təmin etmək.

## 4. Struktur bölmələri və idarəetmə

4.1.Departamentə direktor rəhbərlik edir. Direktor Azərbaycan Texniki Universitetinin rektorunun əmri ilə təyin edilir və birbaşa Elm və innovasiyalar üzrə prorektora tabedir;

4.1.1. Direktor departamentin fəaliyyətinə ümumi rəhbərlik edir, daxili idarəetmə strukturunu formalaşdırır, əməkdaşlar arasında funksiyaların bölgüsünü müəyyən edir və qarşıya qoyulmuş strateji məqsədlərə çatılmasını təmin edir;

4.1.2. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

- Departamentin illik fəaliyyət planını və hesabatını hazırlamaq və rektorluğa təqdim etmək;
- Departamentin struktur bölmələri arasında fəaliyyətlərin əlaqələndirilməsini təmin etmək və onların icrasına nəzarət etmək;

- Universitet daxilində və xarici təşkilatlarla tədqiqat və inkişaf sahəsində əməkdaşlıqların yaradılmasını təşviq etmək və razılaşdırmaq;
- Departamentin fəaliyyətini tənzimləyən daxili normativ sənədləri təsdiqləmək və onların icrasına nəzarət etmək;
- Elmi nəticələrin keyfiyyətinə və effektivliyinə dair qiymətləndirmə meyarlarını formalaşdırmaq və tətbiq etmək;
- Rəhbərlik etdiyi fəaliyyət sahələri üzrə təklif və qərar layihələrini rektora təqdim etmək.

4.2. Departament öz fəaliyyətini aşağıdakı idarəetmə strukturu çərçivəsində həyata keçirir;

4.2.1.Tədqiqat və İnkişaf Sektoru - Bu sektor universitetdə yeni və prioritet sahələr üzrə elmi təşəbbüslərin hazırlanmasını və elmi infrastrukturun gücləndirilməsini təmin edir;

- Strateji tədqiqat sahələrinin müəyyən olunması və bu istiqamətdə təşəbbüslərin irəli sürülməsi;
- Mövcud laboratoriyaların və elmi infrastrukturların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;
- Tədqiqat fəaliyyətinə dair illik planların hazırlanması və Direktorla razılaşdırılması;
- Nəşr fəaliyyətinə dair keyfiyyət meyarlarının müəyyən edilməsi və tətbiqinə nəzarət;
- Antiplagiat sistemlərinin tətbiqi və elmi etikaya nəzarət üzrə təkliflərin hazırlanması.

4.2.2.Reytinqlər və Performans Qiymətləndirmələri Sektoru - Bu sektor AzTU-nun beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması və elmi fəaliyyətin effektiv qiymətləndirilməsi ilə məşğuldur.

- Universitetin beynəlxalq və milli reytinqlərdə mövqeyinin təhlili və inkişaf istiqamətləri üzrə təkliflərin hazırlanması;
- Elmi fəaliyyətin göstəricilərinin (nəşr sayı, istinadlar, indeks göstəriciləri və s.) təhlili və hesabatların hazırlanması;
- Reytinq və performans qiymətləndirmə sistemlərinin qurulması və tətbiqi üzrə fəaliyyətlərin əlaqələndirilməsi;
- Fakültə və şöbələrlə məlumat mübadiləsinin təmin olunması;
- Müvafiq məlumatların toplanması və Direktorluğa təqdim edilməsi.

4.2.3.Beynəlxalq Tədqiqat Əməkdaşlığı və Layihələr Sektoru - Bu sektor beynəlxalq proqramlar, qrantlar və universitetlərarası əməkdaşlıqlar üzrə fəaliyyət göstərir.

- Beynəlxalq qrant proqramları və layihələr üzrə tərəfdaşlıq əlaqələrinin qurulmasına dair təşəbbüslərin irəli sürülməsi;

- Xarici universitetlər və təşkilatlarla əməkdaşlıqların razılaşdırılması və əlaqələndirilməsi;
- Layihələrin hazırlanması və icrası zamanı metodiki dəstəyin göstərilməsi;
- Beynəlxalq layihələrin icra vəziyyəti haqqında mütəmadi olaraq Direktorluğa hesabat təqdim edilməsi;
- Elmi mobillik, qrant müraciətləri və konsorsium quruculuğu üzrə fəaliyyətlərin koordinasiyası.

4.2.4. Akademik Mükəmməllik və Tədqiqatçıların İnkişafı Sektoru - Bu sektor elmi heyətin bacarıqlarının inkişaf etdirilməsi və davamlı akademik mükəmməlliyin təmin edilməsinə fokuslanır.

- Tədqiqatçıların bacarıqlarının inkişafına dair təlim proqramlarının təşkili və həyata keçirilməsi;
- Gənc tədqiqatçılar üçün mentorluq və fərdi inkişaf mexanizmlərinin qurulması;
- Tədqiqat metodologiyası, akademik yazı və layihələndirmə sahəsində təlim materiallarının hazırlanması;
- Tədqiqatçıların fəaliyyət göstəricilərinin təhlil olunması və illik inkişaf hesabatlarının hazırlanması;
- İnkişaf proqramlarının rektorluğa təqdim edilmək üçün Direktorla razılaşdırılması.

4.2.5.Dayanıqlılıq, Sosial Məsuliyyət və Sənaye Əməkdaşlığı Sektoru - Bu sektor universitetin sosial və sənaye ilə əlaqələrinin gücləndirilməsinə xidmət edir.

- Dayanıqlı inkişaf hədəflərinə uyğun tədqiqat və təşəbbüslərin təşviqi və əlaqələndirilməsi;
- Sosial məsuliyyət və sənaye əməkdaşlıqları üzrə strateji tərəfdaşlıqların formalaşdırılması və inkişaf etdirilməsi;
- Texnologiya transferi və startap fəaliyyətləri üzrə fəaliyyətlərin təşkili və monitorinqi;
- Sosial təsirə malik elmi layihələrin reallaşdırılması üçün təkliflərin hazırlanması;
- Müvafiq hesabatların hazırlanaraq Direktorluğa təqdim olunması.

4.2.6.Məlumat və Təhlil Sektoru - Bu sektor elmi fəaliyyətlə bağlı məlumatların idarə olunması və etik standartların təmin edilməsinə cavabdehdir.

- Tədqiqat və inkişaf fəaliyyəti ilə bağlı məlumat bazalarının formalaşdırılması və yenilənməsinə nəzarət;
- Elmi nəticələrin təhlili üçün analitik və statistik metodların tətbiqi və inkişaf etdirilməsi;
- Elmi fəaliyyətə dair rəqəmsal göstəricilərin monitorinqi və qiymətləndirilməsi;

- Elmi etikaya riayət edilməsinə dair nəzarət mexanizmlərinin hazırlanması;
- Təhlil nəticələrinin illik hesabatlar şəklində hazırlanaraq Direktorluğa təqdim edilməsi.

## 5. Departamentin hüquqları

5.1.Universitetdə aparılan bütün elmi-tədqiqat işləri, layihələr, hesabatlar və digər əlaqəli sənədlərlə tanış olmaq və onlara çıxış əldə etmək;

5.2.Tədqiqatların planlaşdırılması və icrası üçün tələb olunan statistik, maliyyə və elmi göstəricilərə giriş imkanına malik olmaq;

5.3.Universitetin fakültələri, elmi müəssisələri, tədqiqat qrupları və fərdi tədqiqatçılardan tədqiqat və inkişaf layihələrinin nəticələrinə dair hesabatlar tələb etmək;

5.4. Layihələrin məqsədlərə uyğun icrasını və nəticələrin keyfiyyətini qiymətləndirmək üçün əlavə məlumatların təqdim olunmasını tələb etmək;

5.5.Universitetin elmi siyasətinin formalaşdırılmasında iştirak etmək və elmi fəaliyyətin inkişafına dair təkliflər vermək;

5.6. Elmi fəaliyyətin təşviqi, innovasiyanın dəstəklənməsi və resursların effektiv istifadəsi ilə bağlı təşəbbüslər irəli sürmək;

5.7. Beynəlxalq elmi proqramlarda, qrant layihələrində və mübadilə təşəbbüslərində iştirak etmək və universiteti bu sahələrdə təmsil etmək;

5.8.Xarici təşkilatlar, tədqiqat institutları və sənaye tərəfdaşları ilə əməkdaşlıq müqavilələrinin hazırlanması və icrasında iştirak etmək;

5.9. Universitetdə aparılan tədqiqat və inkişaf fəaliyyətlərinin daxili normativ sənədlərə və elmi etikaya uyğunluğunu yoxlamaq və monitorinq aparmaq;

5.10. Qrant layihələrinin və digər elmi fəaliyyətlərin maliyyə və idarəetmə aspektlərini təftiş etmək və bu sahədə daxili nəzarət funksiyasını həyata keçirmək.

## 6. Departamentin hesabatlılığı və məsuliyyəti

6.1.Departamentə Rektor tərəfindən təyin edilən direktor rəhbərlik edir;

6.2. Hər bir sektorun fəaliyyətinə sektor müdiri rəhbərlik edir və Departament direktoruna hesabat verir;

6.3. Direktor Departament hər tədris ili üzrə fəaliyyət hesabatını hazırlayır və Elmi Şuraya təqdim edir;

6.4. Rəhbərlik tərəfindən təsdiqlənmiş ştat cədvəlinə əsasən işçilər təyin olunur.